Respublika

18 sentyabr 2010-cu il

# KİTAB HAQQINDA BİR NEÇƏ SÖZ




"Hələ də yuxuda olan kəndlərin, şəhərlərin bu gecə baş verənlərdən xəbəri yoxdu. On səkkizindən on doqquzuna keçən iyun gecəsi Azərbaycan üçün Mübariz Ağakərim oğlu İbrahimov adlı bənzərsiz bir qəhrəman doğmuşdu. O gecə əlli milyonluq Azərbaycan xalqının qəlbinin qapısı Mübariz üçün taybatay açıq idi. Xoş gəldin, qardaş! Xoş gəldin, Mübariz! Şəhidliyin mübarək!". Bu sətirlər görkəmli yazıçı dostum Mustafa Çəmənlinin birnəfəsə yazdığı və mənim bir oxucu kimi birnəfəsə oxuduğum "Mübariz" sənədli povestinin əsas mahiyyətini açır. Həqiqətən, Mübarizin qəhrəmanlıq aksiyası daim toy-bayram əhvalında olan, həyatı şou bilib başını söz-söhbətlər, gileygüzarlar və qeybətlərlə girləyən, maddi olan hər şeyə hərislik göstərən cəmiyyətimizin yaxasından yapışıb silkələdi, mürgüdən diksindirib oyatdı, hətta heyrətə saldı, açıq səmada qəfil göy gurultusu, ildırım effekti yaratdı.

Vətənpərvərlik hissi korşalmış, itirdiyi torpaqların ağrısını az qala unutmuş bizlər bu qəhrəmanlığın mahiyyətinə, məzmununa, motivinə dərhal vara bilmədik, amma bu çaşqınlıq çox çəkmədi, onun yerini bir qürur hissi, ümid işığı tutdu, məğlubiyyət acısını dadmış və təəssüf ki, günahı özündən başqa hamıda görüb belini əyməyə hazır xalqın qəddi dikəldi. Demə bu torpaq hələ qəhrəmanlar yetirmək iqtidarını, gücünü saxlayırmış. İmam Hüseyn şəhidliyi ilkin mahiyyətini itirməkdə olan İslamı dirçəltdiyi kimi, Mübarizin qəhrəman şəhidliyi də bizim özümüzə olan inamımızı geri qaytardı. Biz torpaqlarımızı işğaldan azad etmək gücündə olduğumuzu anladıq. Əgər bu inamı bir də itirsək, Mübariz qeyrəti bizə qənim olar.

Gənc ömrü, sağlam və qüvvətli vücudu, boy-buxunu, qeyri-adi yaraşığı ilə bu dünyada xoşbəxt, fəqət, adi bir ömür sürə bilərdi Mübariz, amma o bunu istəmədi, fani dünyanın yalan ləzzətinə uymadı. O, şüurlu şəkildə, düşünərəkdən qəhrəmanlıq yolunu seçdi, şəhidlik "şərbətini içdi", adını Vətən duyğusu olan hər bir azərbaycanlının ürəyinə iti bıçaqla, ağrıyla yazdı, əbədi həkk elədi. Bir çoxlarının partizan hərəkatı yaratmaq söhbətlərini o, təbliğatsız, müzakirəsiz, mətbuatsız və telereklamsız həyata keçirə bildi, heç kəsə gənəşmədən, heç kəsdən məsləhət almadan, icazə istəmədən.

Mustafa Çəmənli bu misilsiz şücaətin yaratdığı təsirin səngiməsini gözləmədən, isti-isti qələmə aldığı çox faydalı kitabda Mübarizin iyirmi iki illik cavan həyatını, keçdiyi şərəfli şəhidlik yolunu addım-addım izləmiş, onun bir qəhrəman kimi yetişməsi, bir mərd, cəsarətli gənc, qorxmaz kişi kimi formalaşması məqamlarını məharətlə, eyni zamanda səmimi ürək yanğısı ilə göstərə bilmişdir. Mübarizin ata-baba ocağından başlanan qəhrəmanlıq dastanı elə ata-baba ocağında da bitir. O ocaqda ki, orda daim var olan müqəddəs ruhlar dolaşır. Vətənin azadlığı uğrunda şəhid olmağı hər bir şeydən üstün tutan qəhrəman oğulun belə bir halal ailədə, mübarək bir ocaqda yetişməsinin qanunauyğunluğunu oxucuya çatdıran yazıçı, "hər kəs öz mühitinin yetirməsidir" fikrini qəsdən qabardır.

Şübhəsizdir ki, Mübarizin mənfur düşmənə dağ çəkən misilsiz qəhrəmanlığı saysız-hesabsız məqalələrə, sənədli, bədii əsərlərə, kinofilmlərə, səhnə əsərlərinə material verəcək – bu, gələcəyin işidir, amma çox yaxşıdır ki, Mübariz haqqında yazılan ilk kitab məhz peşəkar nasir və ustad publisist qələmindən çıxdı, çünki Vətən, vətənpərvərlik haqqında yazılan hər bir ədəbi əsər ancaq yüksək bədii dəyəri olanda fayda verə bilər.

Onu da qeyd etmək istərdim ki, bu kitabın kütləvi tirajla çap olunmasının, gənclərimiz, xüsusilə xidmət borcunu yerinə yetirən əsgərlərimiz arasında geniş yayılmasının müstəsna faydası olardı.

Əli ƏMİRLİ,
yazıçı-dramaturq.